**UOT 82.1**
**https://doi.org/10.59849/2218-4783.2024.2.228**

**NATAVAN İBRAHİMOVA**

# HÜSEYN RAZİ ŞEİRLƏRİNDƏ MƏHƏBBƏT LİRİKASI

*Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, şair və publisist Hüseyn Razinin yaradıcılığı həmişə ictimaiyyətin diqqət mərkəzində olmuşdur. Hüseyn Razi bir şair kimi, əsasən əllinci illərdə tanınmağa başlamışdır. Ona görə də onun şeir yaradıcılığının ilk mərhələsi – başlanğıc mərhələsi 1960-cı ilə qədər olan dövrdür. İstedadlı şairin poeziyasında həm məhəbbət lirikası, ictimai lirika, həm də fəlsəfi məzmunlu şeirlər üstünlük təşkil edir. Məhəbbət lirikasında romantika hakimdir. Məhəbbət şeirlərində məhəbbət duyğularının, nisgilli sevgi iztirablarının əsrarəngiz könül çırpıntılarının təsviri geniş şəkildə verilmişdir. Şairin iyirminci yüzilliyin ortalarında dərc olunan şeir kitablarındakı məhəbbət şeirləri səmimiliyi, mövzu əlvanlığı, əsrarəngiz gözəlliyi, obrazın fərdi xüsusiyyəti müəllifin subyektiv fikirləri, səmimi duyğuları, saf məhəbbət və sevgi hisslərinin qabarıq şəklində görürük. Hüseyn Razi real insan hisslərini, eşq və məhəbbəti elə təbii oxşatmalarla vəsf etmişdir ki, sanki özünün özünəməxsus dünyasını yaratmışdır. O, sevgi şeirlərində hər iki qütbdə dayanan obrazları öz səviyyələrinə uyğun tərzdə danışdırmış, onları həm də nitq vasitələri ilə öz daxili aləmini açmışdır. Bu lirika ideya-bədii mükəmməlliyi ilə söz sənətimizin qiymətli nümunələri sırasına daxildir. Hüseyn Razinin məhəbbət şeirləri üzərində aparılan təhlillər göstərir ki, şairin sevgi lirikası ideya aydınlığı, mövzu aktuallığı ilə yanaşı, sənətkarlıq baxımından dolğun və mükəmməldir.*

**Açar sözlər:** *Hüseyn Razi, şair, məhəbbət, lirika, səmimi hisslər.*

**Giriş.** XX əsrin ikinci yarısında Azərbaycan ədəbi mühitində seçilən ədəbi nümayəndələrindən biri də Hüseyn Razi olmuşdur. Onun yaradıcılığı həmişə ictimaiyyətin diqqət mərkəzində olmuşdur və poeziyamızın Naxçıvan qolunu təmsil edən sənətkarlardan biridir. Akademik İsa Həbibbəyli yazırdı: "Qədim tarixə və zəngin ənənələrə malik Naxçıvan ədəbi mühitinin Azərbaycan ədəbiyyatı və mədəniyyətinə misilsiz xidmətlərilə seçilən tanınmış nümayəndəsi Əməkdar incəsənət xadimi, şair-dramaturq Hüseyn Razinin ədəbi-elmi irsi olduqca zəngin və çoxşaxəli olmuşdur" [1, s. 441].

Hüseyn Razi tanınmış Azərbaycan şairi idi və onu yurdun hər bölgəsində sevirdilər. Naxçıvanın Səməd Vurğunu hesab edilən istedadlı qələm ustadı Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, şair və publisist Hüseyn Razinin Azərbaycan poeziyasında xüsusi bir yeri vardır. H.Razi bir şair kimi, XX əsrin 40-cı illərindən başlayaraq ədəbiyyata gəlmiş və bir qələm adamı kimi lirik şeirləri, publisistikası ilə ədəbi prosesin gündəmində olmuşdur. Əməkdar elm xadimi Hüseyn Həşimli yazırdı: "Hüseyn Razi sözün əsl mənasında böyük şair idi. O, regionda yaşayıb milli ədəbiyyata dəyərli töhfələr verən azsaylı sənət adamlarındandır. Onun şeirləri də, poemaları da, qələmindən çıxmış nəsr, dramaturgiya, ədəbi tənqid və publisistika nümunələri də əsl istedadın, qaynar ilhamın bəhrəsi olmaqla vətən və xalq qarşısında ziyalı məsuliyyətinin əyani təcəssümüdür" [6, s. 5]. Hüseyn Razi çağdaş Azərbaycan poeziyasında öz üslubu ilə seçilən şairlərdəndir. Bu üslubuna görə onun poeziyası həm Naxçıvan ədəbi mühitində, həm də müasir Azərbaycan poeziyasında seçilə, fərqlənə bilirdi. Rüstəm Behrudi yazırdı ki, "Naxçıvan torpağının 20-ci yüzilliyin sonunda ədəbiyyatımıza verdiyi böyük sənətkarlardan biridir. Və Naxçıvan ədəbi mühitindən çıxan şairlər onun yaradıcılığından təsirlənirdi. Onun əsərləri yaşadığı dövrün ümumi vəziyyəti, ictimai-siyasi ab-havası, əhval-ruhiyyəsi haqqında müəyyən təsəvvür yaratması baxımından çox əhəmiyyətlidir" [1, s. 6].

**Hüseyn Razi lirikasının ümumi səciyyəsi.** Hüseyn Razi Azərbaycan poeziyasında öz fərdi dəsti-xətti, üslubu ilə seçilən şairlərdən idi. Elə bu səciyyəvi xüsusiyyətinə görədir ki, onun poeziyası həm Naxçıvan ədəbi mühitində, həm də müasir Azərbaycan poeziyasında seçilə, fərqlənə bilirdi. “Bədii ədəbiyyatın bir sıra sahələrində qələmini sınasa da, yaradıcılığının ana xəttini poeziya, lirik və dramatik ədəbi növlərdə vətən, doğma el-oba, xalq sevgisilə, böyük cəsarətlə, aydın və konkret dillə yazılmış nümunələr təşkil edir” [9]. Hüseyn Razinin yaradıcılığının bir qolunu da məhəbbət lirikası təşkil edir. Sevgi lirikasının əsas mahiyyəti insan qəlbinin duyğu və həyəcanları, insan gözəlliyini böyük sənətkarlıqla vəsf etməsidir. Məhəbbət insan qəlbini süzgəcdən keçirir, ötərgi və zərərli hisslərdən təmizləyir, yaşamağın mənasını gözəlləşdirir, insanı xeyirxah olmağa, nəcib olmağa dəvət edir. Hüseyn Razinin gözündə məhəbbət insanın gözəlliyinə pərəstiş, həyat sevgisi, insanpərvərlik, dostluq, düzlük, vəfa və sədaqət deməkdir. Məhəbbət mövzusu ədəbiyyatımız üçün hər zaman aktual olmuşdur. Bu mövzu həm nəzm, həm də nəsr üçün xarakterikdir. Sevgi hisslərin tərənnümü klassik şeirimizdən gələn ənənələrdir. Şair yaradıcılığında xalq şeir ənənələrində, klassik poeziya örnəklərindən, aşıq şeirindən, həm də müasir şeirin ən müxtəlif formalarından istifadə etmiş, məzmun və formanın vəhdətini nümayiş etdirmişdir. Şeirlərində məhəbbətin tərənnümü mühüm yer tutur. Bu baxımdan şairin məhəbbət lirikasına aid etdiyimiz şeirləri təqdirəlayiqdir. Məqalədə Hüseyn Razinin məhəbbət şeirlərini təhlilə cəlb edəcəyik.

**İstedadlı qələm sahibinin məhəbbət şeirlərinin təhlili.** Hüseyn Razinin “Cavab” şeirində məhəbbət lirikasına rast gəlirik. Şair öz duyğularını obrazlı şəkildə dilə gətirir. Şair məhəbbətini kövrək, nigaran hətta alova bükülmüş bir ürək adlandırır. Aşiq olduğu qızın eşqi ilə ürəyinin xısın-xısın əridiyini lirik parçalarla ifadə edir.

Mənim məhəbbətim kövrək, nigaran,
Alovla bükülmüş bir ürəkdədir.
Sənin həsrətinlə, sənin odunla
Yanıb xısın-xısın əriməkdədir [6, s. 217-218].

Şeirin lirik qəhrəmanı zərbələrə dözdüyünü, “Sən xoşbəxt yaşasan məndə xoşbəxt olaram” deməklə aşiqinə ən böyük arzusu dilə gətirir. Ümumiyyətlə, məhəbbət haqqında düşünmək onun gözəlliyini, möhtəşəmliyini dərk etmək üçün geniş imkanlar verir. Hüseyn Razinin sevdiyi qıza qarşı olan məhəbbəti təbiidir, səmimidir və bənzərsizdir.

Dözürəm zərbələr silsiləsinə,
Sən varsan, dünyada demək varam mən.
Ən böyük xoşbəxtlik istərəm sənə,
Sən xoşbəxt yaşasan şad olaram mən [6, s. 217-218].

“Bağışlamazdım” şeirində şair sevdiyi qıza inanmaqla, bel bağlamaqla sanki bir peşmançılıq hissi yaşadığını dilə gətirir. Şairin şeirlərində bir qadın obrazı vardır ki, bu da vaxti ilə can deyib-eşitdiyi, sonradan üzü dönüklük edərək lirik qəhrəmanın ən müqəddəs hislərini unudub, eşqinə, məhəbbətinə naxələf çıxan bir obrazdır. Hüseyn Razi əgər “Mən sənin yerinə olsaydım, ölərdim ancaq əhdimi ayaqlamazdım” – deməklə sanki məşuqunu vəfasızlıqda, etibarsızlıqda ittiham edir. “Bağışlamazdım” şeirin əsas motivi həsrətdir, ayrılıqdır.

Əgər gülümsəsəydi ala gözlərin,
Mən sənə heç zaman bel bağlamazdım.
Mən sənin yerinə olsaydım əgər,
Ölərdim, əhdimi ayaqlamazdım [6, s. 57].

Hüseyn Razinin məhəbbət şeirləri psixoloji yaşantılarından bəhs edir. Həmin şeirlər

şairin məhəbbət lirikası üçün xarakterik olan poetik əxlaqın təzahürü baxımından da maraq doğurur. Əhdini pozarmı dünyada insan? – deyən şair qəlbləri bir vuran, bir döyünən lirik qəhrəmanların bir-birilərini başa düşməməsini, nəticə etibarilə ayrılaraq peşmançılıq hissləri keçirməyini şair obrazlı ifadələrlə dilə gətirir.

Mən sənə can dedim, sən mənə böhtan,
Əhdini pozarmı dünyada insan?
Ən adil hökmdar olsaydım inan,
Yenə vəfasızlığı bağışlamazdım [6, s. 57].

Şairin məhəbbət şeirləri içərisində həsrət, ayrılıq və bunlardan doğan iztirab motivləri də güclüdür. "Alışdım oduna pərvanə kimi" – deməklə özünü odda yanan pərvanəyə bənzədərək bəddi təsvir vasitələrindən biri olan təşbeh işlətmişdir. Sonda təxəllüsünü işlədir. Şairin lirik qəhrəmanının məhəbbəti uğursuz məhəbbətdir.

Sən məni unutdun əfsanə kimi,
Alışdım oduna pərvanə kimi.
Raziyəm, bu dərdli nişanə kimi,
Bütün dərdlərimin başına yazdım [6, s. 57].

Hüseyn Razinin "Səni görürəm" şeirində şairin keçirdiyi psixoloji yaşantılardan bəhs olunur. Aşiq dənizə, dolan buludlara baxaraq məşuqunu hər yerdə gördüyünü söyləyir. Hüseyn Razinin məhəbbət lirikası səmimiliyi ilə diqqət çəkir. Bu lirikanın bədii qüdrəti insan qəlbinin duyğu və həyəcanları, insan gözəlliyini böyük sənətkarlıqla vəsf etməsidir. Hüseyn Razi şeirlərində qəlbinin dərinliklərinə işləyən hiss və həyəcan vardır.

Baxıram dənizə, dolan buluda,
Gah səni, gah ayı görürəm suda,
Arada çox uzun yollar uzun olsada
Tufan qopardıqca ürəyimdə qəm,
Mən səni görürəm, səni görürəm [4, s. 144].

Hüseyn Razinin "Eşqin qanadlarımdadır" [3, s 174-175] şeirində lirik qəhrəman sevgilisini elə böyük sevgi ilə sevir ki, onu həyatının hər bir anında belə görür. Hətta məşuqun eşqindən yanıb kül olmağı qərara aldığını, özündən döndüyünü ancaq məhəbbətindən dönməyəcəyini lirik parçalarla ifadə edir. Şairin lirikasının bədii qüdrəti insan qəlbinin duyğu və həyəcanları, insan gözəlliyini böyük sənətkarlıqla vəsf etməsidir.

Ürəyimin səsində, çırpıntısında varsan,
Nə qədər uzaq olsaq, yenə məni duyarsan.
Qışımda, payızımda sən elə bir baharsan,
Gəlişin vüqarımdır,
Eşqin qanadlarımdır.
Özümdən ayrılıram, səndən dönə bilmirəm,
Sənə göz dəydi gülüm, yoxsa mənə bilmirəm.
Elə alışmışam ki, daha sönə bilmirəm,
Kül olmaq qərarımdır,
Eşqin qanadlarımdır [3, s. 174-175].

H.Razi yaradıcılığının mühüm qollarından birini poemaları təşkil edir. Lakin zaman keçdikcə H.Razi lirik şeirin imkanlarından layiqincə istifadə etmək yavaş-yavaş daha əhatəli, geniş imkanları olan poema janrına da müraciət etmiş və bu sahədə də özünəməxsus nailiy-

yətlər qazanmışdır. Şairin müxtəlif dövrlərdə qələmə aldığı 10-a yaxın poeması bu janrın mövzu və sənətkarlıq baxımından zənginləşməsinə xidmət edən poemalardır. Şair Hüseyn Razinin "Dünya sevənlərindir" poeması sevgi, məhəbbət mövzusundan bəhs edir. "Dünya sevənlərindir" poeması lirik poemadır. Hüseyn Razinin "Dünya sevənlərindir" poeması görkəmli Azərbaycan şairi Nizami Gəncəviyə həsr olunub. Nizami Gəncəvinin məşhur beytlərindən birinə epiqrafla başlayan əsərdə sevgi və məhəbbət duyğuları bütün ülviliyi, saflığı ilə tərənnüm və vəsf olunur. Dünyada xoşbəxtliyin onu tapmadığını, eşqinin məhəbbətinin onun pak niyyətinin, təmiz adını fəda etdiyini xatırladır.

"Mən axtardım", axtarmadı
Xoşbəxtlik dünyada məni.
Pak niyyətə, təmiz ada
Etdi eşqim fəda məni [7, s. 286].

Filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov yazırdı ki, "Forma rəngarəngliyinə malik olan poemada ideyanı təsbit və təsdiq üçün çox uğurlu fikir mühakiməsi aparılır, idiomatik modellərdən istifadə edilir. Şairin: "Bu dünyanı yaşadacaq Sevgisilə, həvəsilə, Məhəbbətlə zirehləşən sinəsiylə Gözəlliyi qoruyanlar", – deyə ifadə etdiyi fikir əsərin mühüm ideya-estetik yük daşıyan tezislərindən birinə çevrilir. Şair inanır və inandırır ki, "Məhəbbətdə hər nifrəti, Ən amansız ədavəti Ram eləmək qüdrəti var". Həmçinin məhəbbəti yaşadanların, sevməyi bacaranların sayəsində "Hikkə, nifrət öləcəkdir. Məhəbbət yüksələcəkdir" [8].

**Nəticə.** Əməkdar incəsənət xadimi, şair Hüseyn Razinin məhəbbət lirikası Azərbaycan lirikasında nəinki uzun illər qala bilən, hətta onun səviyyəsini, bədii xarakterini müəyyən edəcək gözəl sənət nümunələrdir. "Hüseyn Razi təkcə Naxçıvan torpağı üçün deyil, Azərbaycan ədəbiyyatının, elminin inkişafında, ümumilikdə müsəlman Şərqinin elmi, ədəbi mühitinin inkişafında və formalaşmasında mühüm rol oynamışdır. Hüseyn Razi də belə zəngin və davamlı ədəbi mühitdə yetişmiş, özündən sonra diqqətəlayiq bir irs qoymuşdur" [10]. Hər şeydən əvvəl şairin məhəbbət şeirləri sadəliyi, bənzərsizliyi, axıcılığı, səmimiliyi ilə təqdirəlayiqdir. Bu lirikanın bədii qüdrəti insan qəlbinin duyğu və həyəcanları, insan gözəlliyini böyük sənətkarlıqla vəsf etməsidir. Məhəbbət şeirlərində həsrət, ayrılıq və bunlardan doğan iztirab motivləri vardır. Şairin gözündə məhəbbət dostluq, vəfa və sədaqət deməkdir. Son olaraq qeyd etmək lazımdır ki, Hüseyn Razinin məhəbbət lirikası Azərbaycan ədəbiyyatının sanballı məhəbbət şeirlər silsiləsinə daxildir. Bütün bu deyilənləri ümumiləşdirsək, nəticə etibarı ilə deyə bilərik ki, Hüseyn Razi XX əsr Azərbaycan ədəbiyyatının son 50 ili ərzində öz istedadı ilə diqqəti cəlb edən sənətkar olmuş, özündən sonra yaşamaq qüdrətini saxlayan bir çox dəyərli əsərlər yaratmışdır.

## ƏDƏBİYYAT

1. Həbibbəyli İ. Nuhçıxandan Naxçıvana. Bakı: Elm və təhsil, 2015, 846 s.
2. Hüseyn Razi. Biblioqrafiya / Tərtib edəni f.e.d. F.Xəlilov. Naxçıvan: Əcəmi, 2015, 304 s.
3. Hüseyn Razi. Gözün aydın. Bakı: Azərbaycan nəşr, 1996, 232 s.
4. Hüseyn Razi. Həmişəbahar. Bakı: Azərbaycan Dövlət Nəşr, 1974, 240 s.
5. Hüseyn Razi-80. Xatirələr işığında. Bakı: Nurlan, 2004, 256 s.
6. Hüseyn Razi. Ömür keçdi. Bakı: Elm və təhsil, 2011, 304 s.
7. Hüseyn Razi. Sahil həsrəti. Şeirlər və poemalar. Bakı: Yazıçı, 1985, 292 s.

8. Qasımov R. Ailə ədəbiyyatın da məhvəridir // https://nuhcixan.az/news/cemiyyet/63835-aile-edebiyyatin-da-mehveridir.
9. Orucova A. Hüseyn Razi ədəbi irsinə dair ilk iri həcmli tədqiqat əsəri // https://naxcivanxeberleri.com/bloq/huseyn-razi-edebi-irsine-dair-ilk-iri-hecmli-tedqiqat-eseri-45080
10. Kərimli X. Hüseyn Razi yaradıcılığında poema janrı // http://www.anl.az/down/meqale/ameanax_axtarishlar/2020/02/772997(meqale).pdf

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: ibragimovusifrza@gmail.com***

**Natavan Ibrahimova**

## LOVE LYRICS IN THE POETRY OF HUSSEIN RAZI

The work of Hussein Razi, an honored artist, poet and publicist of the Republic of Azerbaijan, has always been in the center of public attention. Hussein Razi became famous as a poet, mainly in the fifties. Therefore, the first stage of his poetic work – the initial stage – is the period before 1960. Love lyrics, social lyrics, and philosophical poems predominate in the works of the talented poet. Romance predominates in love lyrics. The love poems describe in detail the feeling of love, suffering from unrequited love and mysterious spiritual impulses. In the poet's love poems, published in the middle of the twentieth century, we can see sincerity, simplicity of the plot, mysterious beauty, individuality of the image, the subjective thought of the author, sincere feelings, pure love. Hussein Razi described real human feelings, love and affection with such natural comparisons that he created his own unique world. In his love poems, he made the heroes standing at both poles speak in a manner appropriate to their level, and also revealed his inner world by speech. This lyric poetry is one of the precious examples of our art of words with its ideal artistic perfection. Analysis of Hussein Razi's love poems shows that the poet's love lyrics are complete and perfect in artistic terms, along with clarity of thought and relevance of the topic.

**Keywords:** *Hussein Razi, poet, love, lyric poetry, sincere feelings.*

**Натаван Ибрагимова**

## ЛЮБОВНАЯ ЛИРИКА В ПОЭЗИИ ГУСЕЙНА РАЗИ

Творчество Гусейна Рази, заслуженного художника, поэта и публициста Азербайджанской Республики, всегда находилось в центре общественного внимания. Гусейн Рази стал известен как поэт преимущественно в пятидесятые годы. Поэтому первый этап его поэтического творчества – начальный этап – это период до 1960 года. В произведениях талантливого поэта преобладают любовная лирика, социальная лирика, стихи философского содержания. В любовной лирике преобладает романтика. В любовных стихах подробно описывается чувство любви, страданий от неразделенной любви и загадочных душевных порывов. В любовных стихотворениях поэта, опубли-

кованных в середине XX века, мы можем увидеть искренность, простоту сюжета, загадочную красоту, индивидуальность образа, субъективную мысль автора, искренние чувства, чистую любовь. Гусейн Рази описал настоящие человеческие чувства, любовь и привязанность такими естественными сравнениями, что создал свой уникальный мир. В своих любовных стихотворениях он заставлял героев, стоящих на обоих полюсах, говорить в соответствующей их уровню манере, а также раскрывал средствами речи свой внутренний мир. Эта лирика – один из драгоценных образцов нашего искусства слова с его идеально-художественным совершенством. Анализ любовных стихов Гусейна Разина показывает, что любовная лирика поэта полна и совершенна в художественном отношении, наряду с ясностью мысли и актуальностью темы.

**Ключевые слова:** *Гусейн Рази, поэт, любовь, лирика, искренние чувства.*

*(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 11.09.2024**
**Son variant 08.10.2024**